# Aqrar sektorun uğurları

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

## Layihə

***Regionların sosial-iqtisadi inkişafında aqrar sahə mühüm rol oynayır. Son illər Azərbaycanda kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması nəticəsində bu sektorda ciddi uğurlar əldə edilib. Ölkəmizdə aqrar sahənin inkişafı kənd təsərrüfatı məhsullarının ixracına da əhəmiyyətli təsir göstərib. Bu sektorun ixrac potensialı yüksəlib, kənd təsərrüfatı məhsullarının ölkənin valyuta gəlirlərinin formalaşmasında rolu artıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə Azərbaycanda ümumilikdə 13 milyard manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub.***

Bu göstərici 2023-cü illə müqayisədə 1,5faiz artıb. İxraca gəldikdə, hesabat ilində 936 milyon ABŞ dolları dəyərində ilkin kənd təsərrüfatı məhsulu xarici bazarlara tədarük olunub ki, bu da əvvəlki illə müqayisədə 6,7 faiz çoxdur. İxrac strukturunda ən böyük payı (75,6 faiz) meyvə-tərəvəz məhsulları təşkil edib. Azərbaycan bəzi məhsullar üzrə beynəlxalq bazarlarda liderliyini qoruyub. Belə ki, xurma ixracında ölkəmiz 2024-cü ildə dünyada yalnız İspaniyadan geri qalaraq ikinci yerdə qərarlaşıb. Meşəfındığının ixracına görə isə Azərbaycan ilk beşlikdə yer alıb. Qeyd edək ki, son 5 ildə (2020-2024-cü illər) ilkin kənd təsərrüfatı məhsullarının ixracı 4,3 milyard ABŞ dollarına bərabər olub. Ötən il Azərbaycanın ilkin kənd təsərrüfatı məhsulları əsasən Rusiya, Türkiyə, Almaniya, Türkmənistan və İtaliyaya ixrac olunub.

Ümumiyyətlə, Prezident İlham Əliyevin kənd təsərrüfatı məhsulları istehsalının səmərəsini artırmaq, bu məhsulların istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsini təmin etmək məqsədilə verdiyi qərarlar bu sektorun ildən-ilə böyüməsini, istehsal göstəricilərinin davamlı olaraq yüksəldilməsini stimullaşdırır. Bu illər ərzində subsidiyaların ayrılması, güzəştli şərtlərlə gübrələrin verilməsi ilə bərabər, fermerlər üçün güzəştli kredit imkanları da yaradılıb. Bu ilin yanvar-may ayları ərzində Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 4340 kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib. Aqrar Tədqiqatlar Mərkəzinin hesabatına görə, hesabat dövründə aqrar sektorda fəaliyyət göstərən 2322 müraciət üzrə 42,8 milyon manat məbləğində güzəştli kredit verilib. 2024-cü ilin ilk beş ayının göstəricilərinə nisbətdə güzəştli kredit alanların sayı 41,1 faiz, kredit məbləği isə 34,6 faiz artıb. Verilən kreditlərin 35 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 2,5 milyon manatı güzəştli kreditlər, 5,3 milyon manatı isə mikrokreditlərdir.

■ **Mövzu ilə bağlı Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyir ki, dünya iqtisadiyyatındakı qeyri-müəyyənliklər, təchizat məsələlərində baş verən çətinliklər, yaranan problemlər enerji daşıyıcılarının, nəqliyyat xərclərinin və ərzaq məhsullarının qiymətlərinin artması inflyasiyanın yüksəlməsinə səbəb olmaqla bir çox ölkədə iqtisadi böhran yaradıb:** "Belə bir şəraitdə Azərbaycan iqtisadiyyatının inkişafı, dayanıqlı və davamlı olması ölkə rəhbəri İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətin, iqtisadi sahədə həyata keçirilən mühüm layihələrin, proqramların, tədbirlərin, sahibkarlığa göstərdiyi qayğı və diqqətin nəticəsi kimi qiymətləndirilməlidir. Bu uğurlu siyasətin bəhrəsidir ki, 2024-cü ildə ölkədə 126.3 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4.1 faiz çox ümumi daxili məhsul istehsal edilib, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər 6,4 faiz çox olub.



Bundan başqa, ötən il ölkənin sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 64.1 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 1.1 faiz çox məhsul istehsal edilib, qeyri-neft-qaz sektorunda məhsul istehsalı 7.2 faiz artıb. Bütün bunlar onu göstərir ki, ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər artıq öz bəhrəsini verməkdədir. Prezidentimiz ölkə iqtisadiyyatının şaxələndirilməsi, sahibkarlığa geniş meydan verilməsi, şəffaflığın və aşkarlığın təmin olunması, maliyyə imkanlarından səmərəli istifadə olunması istiqamətində görülən işləri daim nəzarətdə saxlamaqla, daha mütərəqqi layihələrin hazırlanmasına, qabaqcıl təcrübənin, texnologiyaların tətbiqinə böyük önəm verir. Əgər 2010-cu ildə ölkənin qeyri-neft sektorunda 18.4 milyard manatlıq məhsul istehsal olunurdusa, keçən il bu göstərici 85 milyard manatı ötüb".

> *Əgər 2010-cu ildə ölkənin qeyri-neft sektorunda 18.4 milyard manatlıq məhsul istehsal olunurdusa, keçən il bu göstərici 85 milyard manatı ötüb*

Millət vəkili vurğulayır ki, torpaq sahiblərinə, fermerlərə göstərilən qayğının, dövlət dəstəyinin nəticəsində keçən il kənd təsərrüfatının əksər sahələrində yüksək göstəricilər əldə edilib. Yeni subsidiya mexanizminin yaradılması, elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi, islahatların aparılması, sahibkarlarla əlaqələrin möhkəmləndirilməsi, görüşlərin təşkili, beynəlxalq əhəmiyyətli konfransların, forumların keçirilməsi, maarifləndirməyə üstünlük verilməsi aqrar sektorun inkişafına, həm də insanların kənddə möhkəmlənməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin maddi vəziyyətinin yaxşılaşmasına imkanlar yaradıb. Aqroparkların, sənaye müəssisələrinin, iri təsərrüfatların artması, mütərəqqi texnologiyalara, qabaqcıl təcrübəyə üstünlük verilməsi, güzəştlərin tətbiqi sahibkara, kənd təsərrüfatı sahəsində çalışan hər kəsə yaxşı işləmək, yüksək məhsul əldə etmək üçün bir stimul verib.

Tahir Rzayev, həmçinin deyir ki, qeyri-neft sektorunda artım bu ilin birinci rübündə də özünü aydın şəkildə göstərir: "Azərbaycanda bu dövrdə 29 milyard 893 milyon manatlıq ümumi daxil məhsul istehsal olunub ki, bunun da 20 milyard 103 milyon manatı qeyri-neft sektorunun payına düşür. Qeyd olunan dövrdə 331.2 milyon dollarlıq kənd təsərrüfatı məhsulları ixrac olunub ki, bu da 17.2 faiz artım deməkdir. Aqrar-sənaye məhsulları da 5.9 faiz artaraq 115.6 milyon dollara çatıb. Bu ilin 4 ayı ərzində aqrar məhsulların ixrac dəyəri 14 faiz artmış, 232.7 milyon manat dollara, aqrar-sənaye məhsullarının ixrac dəyəri isə 7.9 faiz artaraq 90.8 milyon dollara çatıb. Keçən ilin 4 ayı ilə müqayisədə aqrar-sənaye məhsullarının yaratdığı dəyərin 12.2 faiz çoxalaraq 323.6 milyon dollara çatması aqrar sektora göstərilən qayğı və diqqətin ifadəsidir. Əsas bitkiçilik məhsullarından sayılan pambıq mahlıcının, pomidorun, meyvə-tərəvəzin ixracında özünü göstərən artım yüksələn xətt üzrə inkişaf edir ki, bu da gələcək ixrac üçün yeni perspektivlər yaradır. Aqrar sektorda inkişaf, məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə xarici bazarlara çıxışı sürətləndirir ki, bu da əlavə pul vəsaitlərinin əldə edilməsi üçün çox əhəmiyyətlidir".

Komitə sədrinin sözlərinə görə, qeyri-neft sektorunda 5 aylıq ixracın 1 milyard dollara çatması olduqca yaxşı nəticədir və kənd təsərrüfatı, sahibkarlığın inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması, yeni iş yerlərinin açılması, mütərəqqi metodlardan və texnologiyalardan istifadə olunması sahəsində mühüm layihələrin hazırlanıb həyata keçirilməsinə imkanlar yaradır: "Sahibkarlığın İnkişafı Fondu tərəfindən təkcə son aylar 600-ə yaxın biznes layihəsinin maliyyələşdirilməsi üçün 32.1 milyon manat güzəştli kredit ayrılıb ki, bu da bilavasitə sahibkarlığın inkişafına xidmət edir. Çox yaxşı haldır ki, güzəştli kreditdən yararlanmış layihələrin 96.5 faizi, həmin kreditlərin ümumi məbləğinin isə 75 faizi regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin payına düşür.

Sənaye parkları, aqroparklar və texnoparkların yaradılması, sahibkarlara torpaq, su, enerji və digər resursların münasib şərtlərlə təqdim edilməsi inkişaf üçün stimuldur və sahibkarlar bundan lazımi qaydada bəhrələnirlər". Millət vəkili qeyd edir ki, dövlətin dəstəyi, qayğı və diqqəti olmadan şəxsi təşəbbüslər sayəsində sahibkarlığı inkişaf etdirmək, iqtisadi uğurlara nail olmaq mümkün deyil: "Prezident İlham Əliyevin ölkədə kənd təsərrüfatının inkişafına, sahibkarlara göstərdiyi qayğının ifadəsidir ki, bu sahə yüksələn xətlə irəliləyir və insanların maddi rifahına, məşğulluğuna öz töhfəsini verir. Milli Məclisin, Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Qida Təhlükəsizliyi Agentliyinin keçirdikləri birgə tədbirlər, dinləmələr, forumlar, yerlərdə keçirilən görüşlər də bilavasitə aqrar sahənin inkişafına, sahibkarlara dəstək verilməsinə istiqamətləndirilib".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*